

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 51 (20.952)

*19 mart 2014-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Əfqanıstan İslam Respublikasının xarici işlər naziri Zarar Ahmad Osmaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə Əfqanıstan arasında dostluq və tərəfdaşlıq əlaqələrinin səviyyəsinin razılıq doğurduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Əfqanıstanda sabitliyin və əmin-amanlığın qorunması istiqamətindəki fəaliyyətini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Ölkələrimiz arasında iqtisadi əlaqələrə toxunan dövlətimizin başçısı bu sahədə də əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi istiqamətində işlərin aparılmasının zəruriliyini qeyd etdi.

Xarici işlər naziri Zarar Ahmad Osmani Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzainin salamlarını dövlətimizin başçısına çatdırdı. O bildirdi ki, ölkəsinin Prezidenti Azərbaycan ilə uzunmüddətli uğurlu əməkdaşlıqdan məmnundur.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, ticarət, sərmayə qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Prezident Həmid Kərzainin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstan İslam Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

## Naxçıvan şəhərində “Gənclər şəhərciyi” yaşayış kompleksinin təməlatması olmuşdur





Muxtar respublikada gənclərin mənzilə olan tələbatının ödənilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”a əsasən, Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində yeni yaşayış kompleksinin – “Gənclər şəhərciyi”nin tikintisi nəzərdə tutulmuşdur.

Martın 18-də yaşayış kompleksinin təməlatma mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: “Gənclərin mənzil təminatının ödənilməsi məqsədilə tikilən yeni şəhərcik mühüm əhəmiyyət daşıyır. Çünki gənclərin mənzillərlə təmin olunması qarşıda duran başlıca vəzifələrdəndir. “Gənclər şəhərciyi” muxtar respublikada bu məqsədlə inşa olunan ilk yaşayış kompleksidir. Burada 302-si ikiotaqlı və 204-ü üçotaqlı olmaqla, ümumilikdə, 506 mənzil, alış-veriş mərkəzləri, idman qurğuları və digər xidmət sahələri istifadəyə veriləcəkdir. Bu da sakinlərin rahatlığının təmin olunmasına və onların gündəlik tələbatlarının ödənilməsinə şərait yaradacaqdır”.

Ali Məclisin Sədri demişdir: “Dövlət dəstəyi hesabına tikilən yaşayış kompleksinin hər cür kommunal-məişət şəraiti olacaqdır. Tikinti işləri 2 il müddətində başa çatdırılacaq və mənzillərin satışı ipoteka yolu ilə həyata keçiriləcəkdir. Bu da gənclərin tez bir zamanda mənzillə təmin olunmalarına imkan verəcəkdir”.



Ali Məclisin Sədri inşaatçıların bayramını təbrik etmiş, onlara işlərində uğurlar arzulamışdır.

Sonra “Gənclər şəhərciyi” layihəsi üzrə görüləcək işlər barədə Ali Məclisin Sədrinə məlumat verilmişdir. Bildirilmişdir ki, ərazidə ikisi 9 mərtəbəli, ikisi 11 mərtəbəli və biri 13 mərtəbəli olmaqla, 5 bina inşa olunacaqdır. Binalardakı ikiotaqlı mənzillərin sahəsi 60-77 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi isə 104-142 kvadratmetr nəzərdə tutulmuşdur. Yaşayış binalarının hər birində sərnişin və yük lifti quraşdırılacaq, 323 yerlik yeraltı avtomobil dayanacağı yaradılacaqdır.

Şəhərciyin kommunal-məişət şəraiti və sosial infrastrukturu da ən müasir tələblər səviyyəsində qurulacaqdır. Həyətyanı sahədə müasir işıqlandırma və təhlükəsizliyi təmin etmək üçün video-kamera sistemləri quraşdırılacaq, uşaq bağçası, basketbol və voleybol, eləcə də açıq şahmat meydançaları inşa olunacaqdır. Həmçinin kompleksi “Cahan” Ticarət Mərkəzi ilə birləşdirən yeraltı keçid istifadəyə veriləcəkdir.

“Gənclər şəhərciyi”nin layihəsi ilə tanışlıqdan sonra Ali Məclisin Sədri beton qarışığını bünövrəyə tökmüşdür.

Daha sonra Ali Məclisin Sədri ərazidə görülən işlər və inşaatçılar üçün yaradılan şəraitlə maraqlanmışdır. Məlumat verilmişdir ki, layihəyə uyğun olaraq, ərazidə lazımi mühəndis-texniki tədbirlər görülmüş, hündürlüyü 60 metr olan kran quraşdırılmışdır. Tikinti işləri aparılarkən əməyin mühafizəsi qaydalarına ciddi diqqət yetirilir. Ərazidə ofis binası, yeməkxana və 48 yerlik yataqxana yaradılmış, işçilərin sağlamlığının qorunması məqsədilə lazımi təhlükəsizlik tədbirləri görülmüş, tibb otağı istifadəyə verilmişdir.

Ali Məclisin Sədri tikinti aparılarkən yerli inşaat materiallarına üstünlük verilməsi, keyfiyyət amilinə ciddi diqqət yetirilməsi, işçilərin sağlamlığının qorunması və təhlükəsizlik qaydalarına əməl olunması, eləcə də tikinti işlərinin layihəyə uyğun olaraq vaxtında başa çatdırılması barədə müvafiq tapşırıqlar vermişdir.

## Muxtar respublikaya yeni tikinti texnikaları gətirilmişdir

Muxtar respublikada tikinti-quruculuq işlərinin həcminin genişləndirilməsi texnika və avtomobillərə olan tələbatın artmasına səbəb olmuşdur. Hər il muxtar respublikaya xarici ölkələrin istehsalı olan müasir tikinti texnika və avtomobilləri gətirilir.

Martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkəti üçün alınıb gətirilmiş

*Ardı 2-ci səhifədə*





yeni texnikalara baxmışdır.

Məlumat verilmişdir ki, yeni gətirilən “Caterpillar” markalı 3 ekskavator və 3 yükləyici, 6 ədəd “Mercedes-Benz” markalı yük avtomobili tikinti işləri zamanı geniş istifadə olunur. Ekskavatorlar binaların fundamentlərinin qazılması və yol-tikinti işlərində yüksək iş göstəricilərinə malikdirlər. Yeni texnika və avtomobillər Naxçıvan şəhərində, eləcə də muxtar respublikanın rayon və kəndlərində aparılan tikinti-quruculuq işləri zamanı istifadə olunacaqdır.

Ali Məclisin Sədri yeni texnika və avtomobillərdən təyinatı üzrə səmərəli istifadə olunması barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan-Polşa əlaqələrində Naxçıvan və naxçıvanlılar

***Azərbaycan-Polşa əlaqələrinin tarixi kökləri tariximizin orta əsrlər dövründən başlayır. Hələ XV əsrdə yaranmış, tərkibinə Naxçıvan da daxil olmuş Azərbaycan Ağqoyunlular dövlətinin Polşa ilə diplomatik əlaqələri mövcud olmuşdur. 1470-ci ildə Venesiya hökuməti, Roma papası II Pavel, həmçinin Polşa hakimləri ilə Osmanlılara qarşı müttəfiqlik haqqında danışıqlar aparmaq üçün Ağqoyunlu Uzun Həsən bu zaman Təbrizdə olan Venesiya səfiri Lazaro Kvirino və öz elçisi Muradı Avropaya yola salmışdır. Tarixçi Y.Mahmudov yazır ki, az sonra Qərb ölkələrinə göndərilən elçilərdən cavab gəlmədiyini görən Uzun Həsən Avropaya başqa bir diplomatı da yola salmış, bu Azərbaycan elçisi Polşaya getmiş, Polşa kralı ilə danışıqlar aparmış, daha sonra Polşa kralının elçisi ilə birlikdə İtaliyaya getmiş və oradan Təbrizə qayıtmışdı. Tarixi mənbələrdən məlumdur ki, Ağqoyunlu hökmdarı Uzun Həsən Otluqbeli vuruşmasından sonra – 1473-1478-ci illərdə də Polşa sarayına öz səfirlərini göndərmiş və müxtəlif məsələlərlə bağlı iki tərəf arasında danışıqlar aparılmışdır.***

Bu diplomatik əlaqələr Səfəvilər dövründə də davam etdirilmiş, I Şah Abbas Avropaya Oruc bəy Bayatın başçılığı ilə göndərdiyi elçilik heyətinə Rusiya ilə yanaşı, 8 Avropa ölkəsində də diplomatik danışıqlar aparmağı tapşırmışdı ki, bunlardan biri də məhz Polşa olmuşdur. Azərbaycan-Polşa əlaqələrinə dair ən maraqlı sənədlərdən biri Şah Sultan Hüseynin (1694-1722) Sakson şahzadəsi və Polşa kralı Fridrix Avqusta məktubudur. Bu məktub həm də ona görə maraq doğurur ki, Azərbaycan dilində yazılmış ilk diplomatik sənədlərdən biri hesab edilir. Bu barədə Dr.Fekete Layoşun 1934-cü ildə “Türkiyat Məcmuəsi”nin V-VI saylarında çapdan çıxmış “İran şahlarının iki türkçe mektubu” adlı məqaləsində də məlumat verilmişdir.

Polşa ilə Azərbaycan arasında əlaqələrin genişlənməsi, əsasən, XIX əsrin II yarısı və XX əsrin əvvəllərinə təsadüf edir. Çar imperiyasının işğalı altında olan bu iki ölkənin sakinləri – müxtəlif hərbçilər, şərqşünaslar, diplomatlar, ziyalılar əlaqədə olmuşlar.

Naxçıvanlı şəxsiyyətlərin Polşa ilə əlaqələri haqqında hələlik bizə məlum olan ilk fakt – hadisə 1839-cu ilə aiddir. Belə ki, tam süvari generalı İsmayıl xan Naxçıvanski məhz həmin ildən Zaqafqaziya Müsəlman Süvari Polkunun naibi kimi Polşanın paytaxtı Varşavada xidmət etməyə başlamışdır. Gələcəkdə general olacaq İsmayıl xan 1840-cı ildə Varşava ətrafındakı hərbi manevrlərdə fərqləndiyinə görə praporşik hərbi rütbəsini almış və 1844-cü ilə kimi burada xidmət göstərərək ştabs-kapitan rütbəsinə qədər yüksəlmişdir. Qeyd edək ki, tarixçi-alim Musa Quliyev 2010-cu ildə Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər” jurnalında “Naxçıvandan Varşavaya gedən Kəngərli süvariləri haqqında” məqaləsində XIX əsrin 40-cı illərində Naxçıvandan Varşavaya göndərilən Kəngərli süvari dəstələri haqqında maraqlı məlumatlar vermiş və bu məqaləsində daha çox Polşaya gedən Kəngərli süvarilərinin geyimləri haqqında bəhs etmişdir.

Araşdırmalarımız göstərir ki, XIX əsrin 40-cı illərində Varşavadakı Zaqafqaziya Müsəlman Süvari Polkunun tərkibində kapitan Hüseyn Sultan, Həsən ağa Nəzər Sultan oğlu, polkovnik İsmayıl ağa Kəngərli, Hacı İsgəndər ağa Novruz ağa oğlu, Almurad bəy Məmmədqulu Sultan oğlu, Nəcəfqulu ağa Kəngərli və Rzaqulu ağa Kəngərli kimi qəhrəman Naxçıvan övladlarının xidmət etməsi barədə müxtəlif mənbələrdə məlumatlar əksini tapmışdır. Ola bilsin ki, bu siyahı daha genişdir və adını çəkdiyimiz və çəkmədiyimiz şəxslərin Polşadakı fəaliyyətləri ilə bağlı digər məlumatlar da mövcuddur.

Qeyd etmək lazımdır ki, bir çox dövrlərdə müxtəlif polşalı səyyahlar, diplomatlar, yazıçılar da Naxçıvanda olmuşlar. Belə şəxslərdən biri də polyak yazıçı, şərqşünas və diplomat Aleksandr Leonardoviç Xodzko Boreyko olmuşdur. O, XIX əsrin 30-cu illərində çar Rusiyasının Persiyada konsulu olmuş, müxtəlif Şərq xalqlarının, o cümlədən azərbaycanlıların şifahi xalq ədəbiyyatı, folkloru, mədəniyyəti ilə maraqlanmışdır. O, Rusiyadan Persiyaya gedərkən yolüstü Naxçıvanda da olmuşdur.

Bir müddət öncə qəzetimizdə tarixi bir poçt markasının beynəlxalq aləmdə mənfur ermənilər tərəfindən “özəlləşdirilməsi” ilə bağlı yazı təqdim etmiş, bu markanın üzərində rus-yapon müharibəsində bir savaş səhnəsinin təsvir edilməsi və şəkildəki şəxslərdən birinin Hüseyn xan Naxçıvanski olması barədə məlumat vermişdik. Qeyd edim ki, bu şəkil də məhz Polşanın köklü nəsillərindən biri olan Mazurovskilər nəslinin nümayəndəsi Viktor Vikentyeviç Mazurovski (1859-1917) tərəfindən çəkilmişdir. Məlumat üçün deyək ki, hələ Peterburqda şərqşünaslıq üzrə təhsil aldığı dövrlərdə Xodzko Mirzə Cəfər Topçubaşovdan Şərq dillərini öyrənmişdir. O, 1842-ci ildə “Koroğlu” dastanının Azərbaycan variantını tərcümə edib Londonda ingilis dilində nəşr etdirmişdir.

XX əsrin əvvəllərində də polyak ziyalıları ilə Azərbaycan ziyalıları, ictimai-siyasi xadimləri arasında əlaqələr mövcud olmuşdur. Çar Rusiyasının dağılması ərəfəsində Dumada polyak Ledinski və azərbaycanlı Topçubaşovun Polşanın və Azərbaycanın muxtariyyəti uğrunda mübarizə aparan xüsusi fraksiya yaratmaları eyni dövrə təsadüf edir. Birinci Dünya müharibəsindən sonra polyaklar Polşadan deportasiya olunarkən on minlərlə insan Azərbaycana gəlmiş və burada məskunlaşmışdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan-Polşa əlaqələrinin tarixi kökləri haqqında danışarkən demişdir: ***“Azərbaycanla Polşa arasında əlaqələrin qədim tarixi vardır. Hələ XIX əsrdə siyasi baxışlarına görə Polşadan sürgün edilmiş inqilabçılar Azərbaycanın timsalında özlərinə ikinci vətən tapıblar. XIX əsrin ikinci yarısından başlayaraq Bakıda inkişaf edən neft sənayesində polyak mütəxəssislərin, alimlərinin də rolu olub. Mühəndis V.Zqlenitski, geoloq K.Boqdanoviç və başqaları Azərbaycanda neftin sənaye üsulu ilə çıxarılması işinə öz töhfələrini veriblər. Həmin dövrdə Azərbaycanda neft milyonçuları tikinti işlərində polşalı mühəndislərə və memarlara müraciət ediblər. İndi Bakı şəhərində yerləşən və ötən əsrlərdən yadigar qalmış onlarla tarixi binanın müəllifləri polşalı memarlardır”.***

Qəzetimizin ötən saylarından birində təqdim etdiyimiz məşhur naxçıvanlı diplomat Məhəmməd xan Təkinski haqqında “Axal-Təki vadisindən Araz vadisinə” adlı yazımızda da vurğuladığımız kimi, məhz 1919-cu il oktyabr ayının 1-də Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər nazirinin müavini təyin edilmiş Məhəmməd xan Təkinski Bakıda Polşanın Qafqazdakı nümayəndəsi Vatslav Ostrovski ilə danışıqlara rəhbərlik etmişdir.

Araşdırmalarımız göstərir ki, Naxçıvanla Polşa arasında mədəni sahədə də əlaqələr mövcud olmuşdur. Hələ Sovet dövründə – 1984-cü ildə “Şərur” Xalq Yallı Ansamblı Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyü çərçivəsində Polşadakı tədbirlərdə iştirak etmişdir.

Polşa Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 27-də tanımış və 1992-ci il fevralın 21-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Lakin Polşa ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1997-ci il avqustun 26-28-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevskinin dəvətilə bu ölkədə ilk dəfə rəsmi səfərdə olmuşdur.

2001-ci ildə Polşanın Azərbaycanda, 2004-cü ildə isə Azərbaycanın Polşada səfirliyi təsis edilmişdir.

Müstəqillik illərində müəyyən edilmiş vahid xarici siyasət xəttinə uyğun olaraq, Azərbaycan-Polşa ikitərəfli münasibətlərində Naxçıvan xüsusi yer tutmuş, ölkəmizdə fəaliyyət göstərən polşalı diplomatlar, müxtəlif beynəlxalq tədbirlərə qatılan ictimai-siyasi xadimlər, elm adamları, jurnalistlər və başqaları Naxçıvanda olmuşlar.

Hələ 2010-cu ildə ölkəmizdə diplomatik fəaliyyət müddəti başa çatan Polşa səfiri Kşiştof Krayevski Naxçıvan Muxtar Respublikasına gəlmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ilə keçirilən görüşdə səfirin fəaliyyəti dövründə Polşa ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında da qarşılıqlı əlaqələrin qurulduğundan məmnunluq ifadə olunmuşdur.

2011-ci ilin sentyabr ayında Polşa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixal Labenda Naxçıvana səfər etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Polşa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfirini qəbul etmişdir. Məhz bu görüş zamanı polşalı diplomat ölkəmizdəki diplomatik fəaliyyəti müddətində Polşa Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında qarşılıqlı əlaqələrin inkişafı barədə mövqe ifadə etmiş, polyak regionları və Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlığın, xüsusən isə mədəniyyət və elm, həmçinin kənd təsərrüfatı sahəsində çoxşaxəli əməkdaşlığın qurulması imkanlarına və başqa məsələlərə aid müzakirələr aparılmışdır.

2012-ci ildə polşalı diplomat Polşa Baş Ticarət Məktəbinin rektoru, professor Adam Budnikovski ilə birlikdə Naxçıvana gəlmiş, Naxçıvan Dövlət Universitetində keçirilən görüş zamanı universitetlərarası tərəfdaşlıq barədə razılaşmalar əldə edilmiş, universitetlərarası müqavilə imzalanmışdır.

Naxçıvanın müasir dövr tarixində Polşa ilə bağlı digər bir maraqlı hadisə Avropa Birliyinin Regionlar Komitəsinin dəvəti ilə Naxçıvan Muxtar Respublikasının “AB-Şərq tərəfdaşları” formatında yaradılan yeni təşkilatın – “Şərq tərəfdaşlığı”nın Regional və Yerli Hakimiyyətlərinin İllik Konfransının (CORLEAP) yaradılması üçün 2011-ci ilin sentyabr ayında Poznanda (Polşa) keçirilən konfransda təsisçilər sırasında yer almasıdır. 2012-ci ilin fevral ayından etibarən Naxçıvan Muxtar Respublikası CORLEAP-ın bürosunda da təmsil olunmaqdadır.

Ötən il Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Azərbaycanın Polşa Respublikasındakı səfirliyinin birgə əməkdaşlığı ilə muxtar respublika ərazisindəki tarixi abidələrin xatirə medalları hazırlanmış, medallarda “Möminə xatın”, “Yusif Küseyir oğlu”, “Qarabağlar”, “Nuh Peyğəmbər” və “Hüseyn Cavid” türbələrinin təsvirləri əks olunmuşdur.

***Bu gün inkişaf edən Azərbaycan-Polşa əlaqələri sistemində Naxçıvanın xüsusi yeri var. Əlaqələrin inkişafının müsbət dinamikası isə onu deməyə əsas verir ki, iki ölkənin regionları arasında əlaqələrin inkişafı hər iki tərəf üçün faydalı ola bilər.***

**Elnur KƏLBİZADƏ**

## Çanaqqala zəfərinin 99-cu ildönümündə türk şəhidlərinin abidəsi ziyarət edilib

Tarixçilər 1915-ci ilin 18 mart gününü türk ruhunun yenidən kükrəməsi, məmləkətin taleyində yeni dövrün başlanğıcı kimi dəyərləndirirlər. Hər il martın 18-də türk xalqının müttəfiq dövlətlərin “Yenilməz Armada”sına qarşı ölüm-dirim savaşında qazandığı Çanaqqala zəfərinin ildönümü Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında qeyd olunur.

Çanaqqala zəfərinin 99-cu ildönümü münasibətilə Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanında türk şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib.

Tədbirdə Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun əməkdaşları, Əlahiddə Ümumqoşun Ordusunun zabitləri, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Əsgər İsmayılov, Naxçıvandakı türk liseylərinin müəllimləri, bir qrup türk iş adamı və türkiyəli tələbələr iştirak ediblər.

Əvvəlcə 1918-20-ci illərdə Naxçıvanın erməni daşnakları tərəfindən işğalının qarşısının alınmasında şəhidlik zirvəsinə ucalan qəhrəman türk əsgərlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, abidə önünə əklil qoyulub, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Mərasimdə Türkiyənin Naxçıvandakı Baş konsulu Əli Rza Akıncı bildirib ki, şəhidlərimizin dünyada analoqu olmayan bir şəkildə ortaya qoyduqları sarsılmaz Vətən sevgisi və millət olmaq şüuru ən böyük qürurumuz, zənginliyimiz və ən böyük gücümüzdür. Vətənin torpaqlarını qorumaq üçün ən çətin şəraitdə çəkinmədən canlarını fəda edən əziz şəhidlərimiz sonsuza qədər qəlbimizdə yaşamağa davam edəcək.

Sonra ziyarətçilər Şəhidlər Xiyabanında ucaldılmış Ana abidəsinin və ötən əsrin sonlarında ölkəmizin azadlığı və suverenliyi, Naxçıvanın qorunması uğrunda şəhid olmuş Vətən oğullarının məzarları önünə gül-çiçək dəstələri düzüblər.

**Xəbərlər şöbəsi**




# Adına tarixilik, yaşına müasirlik yaraşan rayon – Kəngərli

***Adı tarixin uzaq dövrlərindən bəlli olan Kəngərli rayonunun yaradılmasından 10 il ötür. Məhz 10 il bundan əvvəl, 2004-cü il martın 19-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanununu imzaladı. Qanuna görə, Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Böyükdüz, Çalxanqala, Xıncab, Şərur rayonunun isə Qarabağlar, Xok, Qıvraq, Qabıllı, Yurdçu və Yeni Kərki kənd inzibati ərazi dairələrini əhatə edən ərazi vahidləri yeni yaradılmış rayona daxil edildi. Qanunun digər bəndinə görə isə Qıvraq kəndinə qəsəbə statusu verilərək rayon mərkəzinə çevrildi. Bu, həmin dövr idi, ölkə başçısı respublikaya rəhbərliyə bir neçə ay idi ki, başlamışdı. Regionların sosial-iqtisadi inkişafına dair ilk dövlət proqramı yenicə imzalanmışdı. Qarşıda ölkəmizin, muxtar respublikamızın inkişafı üçün mühüm layihələr həyata keçiriləcək və gənc Kəngərli rayonu da bu inkişafdan öz payını alacaqdı.***

Kəngərli rayon mərkəzi 10 il bundan əvvəl Qıvraq kəndindən, bir də kəndin şimal hissəsindəki boş və quru çöllük ərazilərdən ibarət idi. O zamanlar çoxumuz buranın nə zamansa gözəl bir rayon mərkəzinə çevriləcəyini ağlımıza gətirməzdik. Ancaq Heydər Əliyev ideyalarının muxtar respublikamızda uğurla həyata keçirilməsi bütün bölgələrimiz kimi, yeni yaradılmış Kəngərli rayonunu da gözəlliklər diyarına çevirdi. Tarix üçün çox qısa bir dövrü əhatə etsə də, ötən illər ərzində burada mühüm infrastruktur layihələri həyata keçirilmiş, Kəngərlinin sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş vermişdir. Təhsil, səhiyyə, idman, mədəniyyət müəssisələri və digər sosialyönümlü obyektlər tikilərək sakinlərin istifadəsinə verilmişdir. 2006-cı ilin iyul ayında Kəngərli Rayon İcra Hakimiyyətinin inzibati binasının açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu rayonun yaradılması ilə bölgədə bir çox məsələlər həll olunmuşdur. Artıq rayonun öz büdcəsi var, yeni yaradılmış idarələrdə mindən çox iş yeri açılmışdır. Beləliklə, bu rayonda yaşayan əksər ailələrin heç olmasa bir üzvü işlə təmin edilmişdir. Yeni rayonun yaradılması bu bölgənin iqtisadiyyatına, gələcəkdə onun daha da möhkəmlənməsinə, ailələrin məskunlaşmasına kömək edəcəkdir. Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa bir müddət ərzində muxtar respublikanın digər rayonlarının səviyyəsinə çatacaqdır".***

Qeyd edək ki, 1 qəsəbə və 10 kəndi özündə birləşdirən Kəngərli rayonunun mərkəzi Naxçıvan-Sədərək magistral yolunun üzərində yerləşir. Əsaslı və kompleks şəkildə aparılan tikinti-quruculuq tədbirlərinin nəticəsidir ki, rayon mərkəzi sayılan Qıvraq qəsəbəsi tamamilə öz simasını dəyişmişdir. İndi bu adıçəkilən məkanda tikilən bir-birindən gözəl inzibati binalar, Mədəniyyət və İstirahət parkı, gözəl memarlıq quruluşuna malik Mədəniyyət Evi, qəsəbədaxili və kəndarası rahat yollar Kəngərlinin simasına əsl gözəllik qatır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ötən dövr ərzində Kəngərli rayonunda görülmüş işləri yüksək dəyərləndirmiş, muxtar respublikaya səfərləri çərçivəsində rayondakı bir sıra ünvanların açılışında iştirak etmişdir. 2010-cu ildə Naxçıvan-Sədərək magistral yolunun Kəngərli rayonundan keçən hissəsinin və rayon mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsinin açılış mərasimində ölkə başçısı sakinlərlə görüşərək burada həyata keçirilən tədbirləri yüksək qiymətləndirmişdir. Həmçinin 2012-ci ildə Kəngərli Rayon Mədəniyyət Evinin açılış mərasimində iştirak edən Prezident demişdir: ***"Biz iki il əvvəl də sizinlə görüşmüşük. İki il əvvəl ulu öndərin abidəsinin açılışında bərabər idik. Mən çox şadam ki, bu iki il ərzində Kəngərli rayonunda böyük işlər görülmüşdür. Burada doğrudan da, gözəl mərkəz yaradılmış, yeni inzibati binalar tikilmişdir, indi fərdi evlər də tikilməkdədir... Bu gün gözəl Mədəniyyət Evinin açılışında toplaşmışıq. Bir neçə il əvvəl Naxçıvanda Heydər Əliyev adına möhtəşəm Mədəniyyət Mərkəzinin açılışında iştirak etmişdik. İndi isə Kəngərli rayonunda Mədəniyyət Evinin açılışında iştirak edirik. Bu, böyük rəmzi məna daşıyır. Çünki bir neçə il əvvəl Kəngərli rayonu inzibati ərazi kimi mövcud deyildi. Bir neçə il bundan əvvəl Vasif Talıbov belə təşəbbüslə çıxış etmişdi. Mən bu təşəbbüsü təkcə kağız üzərində deyil, əməldə dəstəklədim və qısa müddətdə rayon yaradıldı. Qeyd etdiyim kimi, bu gün rayonun artıq inzibati mərkəzi vardır. Bu mərkəz böyüyəcəkdir və əminəm ki, gələcək illərdə Kəngərli rayonunda bundan da gözəl və yaxşı işlər görüləcəkdir. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm, Kəngərli rayonunun və bütün Naxçıvan Muxtar Respublikasının sakinlərinə yeni uğurlar arzu edirəm".***

Muxtar respublikamızda kənd yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər, xüsusilə yeni kənd mərkəzlərinin tikintisi Kəngərli rayonunda da böyük vüsət almış, mühüm tədbirlər həyata keçirilmişdir. Yaradılmasının 10-cu ildönümündə artıq rayonun Yurdçu kəndi istisna olmaqla, bütün kəndlərində kompleks quruculuq işləri aparılmış, bütün kənd yolları yenidən qurulmuşdur. Rayon yeni kənd mərkəzlərinin mövcudluğuna görə muxtar respublikanın bütün bölgələrindən irəlidədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2011-ci il 2 sentyabr tarixli Sərəncamına uyğun olaraq yenidən qurulan yollar yaşayış məntəqələri arasında daha tez, asan və təhlükəsiz nəqliyyat əlaqəsinin qurulmasına öz töhfəsini verir. Uzunluğu 39 kilometr olan və 13 min nəfərdən çox əhalinin yaşadığı 5 kənd yaşayış məntəqəsini birləşdirən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qarabağlar-Yurdçu-Qıvraq (Xıncab da əlavə yolla birləşməklə) dairəvi avtomobil yolu adıçəkilən kəndlərə gediş-gəlişi xeyli asanlaşdırmışdır. Bununla yanaşı, rayonda quruculuq tədbirləri bu gün də davam etdirilir. Rayon mərkəzində yenidən qurulmasına ötən ildən başlanılmış rayon Mərkəzi Xəstəxanasının inzibati binası təhvilə hazırdır. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan, 30 çarpayılıq bu xəstəxanada bütün zəruri şöbələr fəaliyyət göstərəcək. Rayon sakinlərinin sağlamlığının keşiyində duracaq bu səhiyyə ocağında müasir tibbi avadanlıqlar quraşdırılmışdır. Bundan başqa, rayonda Uşaq-Gənclər Şahmat Məktəbi üçün binanın da tikintisinə başlanılmışdır. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq bu idman obyekti uşaq və gənclərin intellektual idman növü olan şahmata marağını artırmaqla bərabər, onların asudə vaxtlarının səmərəli keçməsində də mühüm rol oynayacaq.

Kəngərli rayonunun hərtərəfli inkişafında təhsil və mədəniyyət sahələrinin də öz rolu var. Bu gün rayonun 12 ümumtəhsil məktəbindən 10-u yeni binada fəaliyyət göstərir. Təbii ki, yaradılmış şərait təhsilin səviyyəsinin ildən-ilə yüksəlməsinə öz töhfəsini verir. Belə ki, ötən tədris ilində ümumtəhsil məktəblərini 300 məzun bitirmiş, onlardan 74 faizi – 222 nəfəri ali məktəblərə sənəd vermişdir. Sənəd verənlərdən 89 nəfəri ali məktəblərə, 13 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olunmuşdur. Rayon üzrə qəbul imtahanlarında yüksək nəticə göstərərək 500-700 intervalında bal toplayanların sayı 21 nəfər olmuşdur. Qeyd edək ki, bir il əvvəl belə məzunların sayı 10 nəfər idi. Yeri düşmüşkən, ötən il 31 nəfər Heydər Əliyev adına Hərbi Liseyə, 2 nəfər isə Polis Akademiyasına qəbul olunmuşdur.




Mədəniyyətə göstərilən dövlət qayğısı Kəngərli rayonunun mədəni inkişafına zəmin yaratmışdır. Rayonun Mədəniyyət və Turizm Şöbəsi 1 rayon Mədəniyyət Evi, 5 kənd mədəniyyət evi, 5 kənd klubu, 1 Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 2 Uşaq Musiqi Məktəbi və 1 Tarix-Diyarşünaslıq Muzeyini özündə birləşdirir. Eyni zamanda dünya əhəmiyyətli Qarabağlar türbəsi, qədim Şahtaxtı hamamı və Şahtaxtinskilər Muzeyi də Kəngərlinin maraqlı mədəniyyət ünvanlarındandır. Rayonda milli və mədəni dəyərlərimizin təbliği hər zaman diqqət mərkəzində saxlanılır. 2004-cü ildə fəaliyyətə başlamış "Kəngər" instrumental ansamblı, 2005-ci ildə yaradılmış qızlardan ibarət "Gülümhey" folklor qrupu, 2012-ci ildə təşkil edilmiş həm uşaq, həm də böyüklərdən ibarət yallı kollektivləri bu gün Kəngərlinin mədəni həyatında mühüm rol oynayır. Qarabağlar kənd mədəniyyət evində




fəaliyyət göstərən toxuculuq dərnəyi isə gənclərə bu el sənətinin mənimsədilməsinə, beləliklə, toxuculuq sənətinin yaşadılmasına öz töhfəsini verir. Yuxarıda qeyd etdiyimiz kimi, 2012-ci ildə istifadəyə verilən və açılış mərasimində ölkə başçısının da iştirak etdiyi Kəngərli Rayon Mədəniyyət Evi rayonda müxtəlif tədbirlərin keçirilməsi üçün ən ideal məkandır.

Kəngərli rayonu da muxtar respublikamızın əksər rayonlarında olduğu kimi, kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində ixtisaslaşmışdır. Təbii ki, bu sahədə həm suvarma, həm də içməli su mənbələrinin yenidən qurulmasında atılan addımların əhəmiyyəti böyükdür. Məsələn, ötən il rayonda 4 yeni subartezian quyusunun qazılması, 2 kəhrizin, 8 subartezian quyusunun əsaslı təmir edilməsi, yol çəkilişlərinin həyata keçirilməsi ilə əlaqədar yeni su keçidlərinin quraşdırılması həyata keçirilən tədbirlər sırasındadır. Cari ildə də dövlətimizin qayğısı sayəsində "Kəngərli rayonunda irriqasiya sistemlərinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində işlər uğurla davam etdirilir.

Hazırda rayonun Yeni Kərki, Xıncab, Təzəkənd və Böyükdüz kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təmin olunması məqsədilə Uzunoba Su Anbarından qidalanan 720 millimetrlik qoşa boru xətti çəkilir. 32,4 kilometr uzunluğunda boru xətlərinin çəkilişindən sonra Kəngərli rayonu ərazisində yeni nasos stansiyası da tikiləcək, su sərfi saatda 1200 kubmetr olan 3 ədəd aqreqat quraşdırılacaqdır. Eyni zamanda nasos stansiyasından 8,7 kilometr uzunluğunda təzyiqli boru xətti çəkiləcək və tutumu 250 kubmetr olan suqəbuledici inşa ediləcəkdir. Bu işlər həyata keçirildikdən sonra rayonda əlavə 4 min hektar yeni torpaq sahəsini də əkib-becərmək mümkün olacaqdır.

Vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncamı rayonda əkinçiliyin inkişafına stimul vermiş, müsbət nəticələrin əldə edilməsinə şərait yaratmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" rayonda uğurla icra edilir. Muxtar respublikamızın taxıla olan tələbatının daxili imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verməkdədir. Rayon ərazisində ötən il torpaq mülkiyyətçiləri tərəfindən 3869 hektar taxıl sahəsindən 10 min 901 ton taxıl əldə edilmişdir. Hər hektarın məhsuldarlığı 28,2 sentner olmuşdur. Bundan əlavə, daxili bazarın yerli tərəvəz məhsulları ilə təmin olunması da diqqət mərkəzində saxlanılmış, 290 hektar sahədən 3526 ton tərəvəz tədarük edilmişdir. Son illərdə rayonda kartofçuluğa da maraq xeyli artmışdır. Sahibkarlara güzəştli şərtlərlə kredit və avadanlıqların verilməsi nəticəsində 213 hektar sahədə kartof əkini aparılmışdır ki, həmin sahələrdən də 2839 ton məhsul yığılmışdır.

Rayonda kənd təsərrüfatının digər sahələri də diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq ötən il 12 hektar ərazidə yeni meyvə bağları salınmışdır. Təsərrüfatçılara yaradılan imkanlardan biri də rayonda 300 ton tutumu olan soyuducu anbarın mövcudluğudur ki, təsərrüfat sahibləri bundan yetərincə yararlana bilirlər.

Heyvandarlığın inkişafı da Kəngərli rayonunda diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Hazırda təsərrüfatlarda 7 min 920 baş iribuynuzlu, 90 min 520 baş xırdabuynuzlu heyvan, 101 min 950 baş quş saxlanılır. Arı ailələrinin sayı isə artırılaraq 1560-a çatdırılmışdır.

Müxtəlif sahələr üzrə həyata keçirilən tədbirlər rayon sakinlərinin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluq problemlərinin həll edilməsi baxımından da əhəmiyyət kəsb edir. Rayon üzrə məşğulluğun göstəriciləri belədir ki, ötən il 229 nəfər işlə təmin olunmuş, eyni zamanda 26 nəfər müxtəlif peşə təlimi kurslarına göndərilmişdir. Kəngərli rayonunda əhalinin sosial müdafiəsi sahəsində atılan addımlar da daim diqqət mərkəzində saxlanılır. Yaradılmasından keçən 10 il ərzində rayonda imtiyazlı təbəqənin 13 üzvü üçün fərdi ev tikilmiş, 21 nəfərə avtomobil verilmişdir.

***Bəli, fəxrlə demək olar ki, Kəngərli rayonu yaşının az olmasına baxmayaraq, bu gün muxtar respublikanın inkişaf edən rayonları sırasındadır. Rayonda inkişaf və yüksəliş davamlı xarakter alıb. Sakinlərinin əhval-ruhiyyəsi də yaradılan bu şərait hesabına daha da yüksəlib, onların sabaha olan inamı artıb. Heydər Əliyev ideyalarına sadiqlikdən güc alaraq müasir görkəmdə qurulan Kəngərli rayonu adına tarixilik, yaşına müasirlik yaraşan ən gənc bölgələrimizdəndir. 10 yaşın mübarək, qədim yurd!***

Səbuhi HƏSƏNOV




Turizm sənayesi

# Otel təsərrüfatı turizmin aparıcı sahəsidir

*Naxçıvandakı müasir otellər Novruz bayramı günlərində muxtar respublikamıza gələn qonaqlara yüksək səviyyədə xidmət göstərəcək*

*"Turizm sənayesi" rubrikasında ilk olaraq otel təsərrüfatına və muxtar respublikamızda otellərin hazırkı vəziyyətinə nəzər saldıq. Naxçıvanda bu gün dünya standartlarına cavab verən, dövlət başçıları səviyyəsində beynəlxalq tədbirlərin keçirilməsinə imkan yaradan otellər vardır. Bu otellər öz müasir şəraiti ilə bu günlərdə çoxlu sayda turistləri qarşılamağa hazırlaşırlar. Novruz bayramı ərəfəsində elan olunmuş qeyri-iş günlərində muxtar respublikamıza həm xarici ölkələrdən, həm də ölkəmizin digər yerlərindən gələn qonaqlara nümunəvi xidmətlər göstərmək üçün mehmanxanalarımız buna tam hazırdırlar. Novruz ərəfəsində şəhərimizin "Duzdağ", "Təbriz" və digər otellərində keçiriləcək bayram tədbirləri regiona gəlmiş turistlərdə zəngin təəssürat yaradacaqdır. Artıq otellərimizdə müşahidə olunan qaynar işgüzarlıq bundan xəbər verir.*

✍ **Əli CABBAROV**

***Mehmanxana və ya otel təsərrüfatı turizm sənayesinin mühüm tərkib hissəsidir. Ona görə də turizm sənayesi dedik ki, burada rekreasiya məhsulu istehsal edilərək turistlərə lazım olan bütün növ xidmətlər göstərilir. Turizm sənayesi isə çox geniş olub, mehmanxanalardan başqa, yemək, nəqliyyat, ekskursiya, müalicə, rekreasiya, təhlükəsizlik, ticarət, informasiya, rezervasiya xidmətlərinin, hədiyyəlik əşya istehsalı və satışı, habelə turizm sektoru üçün kadr hazırlığı kimi onlarla digər xidmətlərin məcmusudur. Mehmanxanalar turistlərin gecələməsi üçün vacib olduğundan onların fəaliyyəti və burada tətbiq olunan komfort standartları regiondakı turizm xidmətlərinin, peşəkar qonaqpərvərliyin səviyyəsi haqda ilkin fikir söyləməyə imkan verir. Hər halda, yaradılmış zəruri infrastruktur vardırsa, onda əsas yük də təşkilatçılığın, kadr məsələsinin üzərinə düşəcəkdir.***



Söz yox ki, turizm sosial xidmət sahələri arasında müstəqil inkişaf gücünə malik olmaqla bərabər, həm də iqtisadiyyatın digər sahələrinə də güclü təsir etməkdədir. Başqa sözlə, turizmin inkişafını iqtisadiyyatsız təsəvvür etmək mümkün deyildir. Ona görə də ölkəyə və ya onun bir regionuna səfər edən turistlərin sayı haqqında danışdıqda ilk olaraq onlara göstərilən zərf xidmətlər nəzərdə tutulur ki, bunun da əvvəlində mehmanxana xidmətləri gəlir. Çünki mehmanxanalar olmasa, turistlərin gəldikləri regionda 12 saatdan artıq qalması praktik olaraq mümkün deyildir.

Ölkəmiz inkişaf etdikcə onun səhib olduğu rekreasiya potensialı da daha qabarıq olaraq üzə çıxır və hər il daha çox turist ölkəmizə səfər edir. Muxtar respublikamız da özünün bənzərsiz turizm ehtiyatları ilə təkcə Azərbaycanın deyil, yaxın regionun əlverişli turizm destinasiyalarından biridir. Naxçıvan ona görə əlverişli turizm regionudur ki, burada turistləri maraqlandıran cazibədar təbii, tarixi-mədəni ehtiyatlardan tutmuş təhlükəsizliyədək bütün cazibədarlıq vardır. Turistlər səyahət etdikləri regionda qısa səfər müddəti ərzində onları maraqlandıran bir çox obyektlərlə rahat şəkildə tanış olmaq istədiklərindən Naxçıvan Muxtar Respublikasının cəmi bir neçə saatlıq tur marşrutları boyunca onların istər təbii, istər tarixi-mədəni, istərsə də müasir insan əli möcüzələri ilə yaxından tanış olmaq imkanları vardır. Bu da, öz növbəsində, muxtar respublika ərazisində müxtəliftəyinatlı və komfort dərəcəli otellərin əhəmiyyətini artırır.

Hazırda Naxçıvanda tutumuna və yerləşmə mövqeyinə görə xeyli sayda otel vardır. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyindən aldığımız məlumatda muxtar respublikada 21 mehmanxana və mehmanxanatipli müəssisənin olduğu göstərilir. Ümumi nömrə sayı 654, lüks dərəcəli nömrələrin sayı isə 217 olan bu mehmanxanaların birdəfəlik tutumu 1500 nəfərdən çoxdur. Başqa sözlə, muxtar respublikanın otellərində bir gecədə 1500 nəfər turist yer alıb qala bilər. Yəqin ki, təkcə muxtar respublika sakinləri deyil, həm də hər gün regiona səfər edən qonaqlar öz şəraiti ilə seçilən "Duzdağ", "Təbriz", "Qrand Naxçıvan", "Avtovağzal" otellərini, habelə yeni istifadəyə verilmiş Ağbulaq İstirahət Kompleksini yaxşı tanıyırlar.




Bunlardan əlavə, şəhərimizdə və muxtar respublikanın digər yaşayış məntəqələrində, habelə magistral yol kənarlarında bir neçə otel müəssisələri də vardır. Ancaq təkcə Naxçıvan Muxtar Respublikasının deyil, ölkəmizin turistlər tərəfindən ən çox sevilən turizm məkanlarından olan Ordubadda hələ də müasirtipli mehmanxananın olmaması buraya gələn turistlərin gecələməsi üçün çətinliklər yaradır. Düzdür, Ordubad, onun ən ucqar kəndləri muxtar respublikanın digər guşələri kimi özünün intibah dövrünü yaşamaqdadır. Və bu da Ordubada gəlmiş hər bir qonağın bəzilərinin komfort təminatı lüks dərəcəli otellərdən də geri qalmayan kənd evlərində yerləşdirilməsi üçün lazımi imkanlar yaradır. Yəni özünün qonaqpərvərliyi ilə seçilən Ordubada kiminsə özünə gecələməyə yer tapa bilməməsindən danışmaq qeyri-mümkündür. Ancaq o da var ki, turizm təkcə milli qonaqpərvərlikdən ibarət deyildir və onun vacib elementlərindən biri də peşəkar qonaqpərvərlikdir ki, onun da əsas xidmət yeri otellərdir. Çünki turizmin növləri təkcə kənd-yaşıl turizmi ilə məhdudlaşmır.

Otel və ya oteltipli müasir mehmanxana müəssisələri turizm sənayesində ən çox zərf xidmətlərin göstərildiyi və bilavasitə ən çox gəlirlər əldə olunduğu xidmət obyektləridir. Ümumi turizm xidmətlərinin 60 faizinə yaxını otellərdə təşkil oluna bilər. Bunlar adi səhər yeməyindən tutmuş konfrans və işgüzar görüşlərədək hər cür xidmətlər ola bilər. Turistlərin rahatlığı üçün nəzərdə tutulmuş bütün bu xidmətlər həm də otellərin gəliri deməkdir. Ona görə də müasir dövrdə mehmanxanaların yenilənməsi, onların texniki və komfort standartlarının təkmilləşdirilməsi üçün görülən hər bir iş xidməti personalın bacarığı ilə üstüstə düşdükdə çəkilən xərclər bir neçə mövsümdə geri qaytarıla bilir. Mehmanxana təsərrüfatının təşkili isə təkcə müvafiq infrastrukturla bitmir. Yəni yaradılmış şərait regiona turist gətirən turoperatorların və qonaqpərvərlik sənayesi üçün kadr hazırlayan təhsil müəssisələrinin səriştəli fəaliyyəti ilə tamamlanmalıdır. Çünki mehmanxanasız turizm olmadığı kimi, peşəkar kadrlarsız da mehmanxanalar, sadəcə, yaraşıqlı bir binadırlar.


Ağbulaq İstirahət Kompleksi

## Novruz bayramı münasibətilə tədbirlər keçirilib

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Novruz bayramı münasibətilə martın 17-də Naxçıvan şəhərində, muxtar respublikanın rayon mərkəzlərində tədbirlər keçirilib.***

Naxçıvan Əlillərin Bərpa Mərkəzində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov Novruz bayramı münasibətilə məhdud fiziki imkanlı şəxsləri təbrik edərək qeyd edib ki, muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslərə hərtərəfli diqqət və qayğı göstərilir. Onların sosial müdafiəsinin yaxşılaşdırılması, tibbi-sosial reabilitasiyalarının həlli, cəmiyyətə inteqrasiyası, o cümlədən asudə vaxtlarının səmərəli təşkili istiqamətində davamlı tədbirlər həyata keçirilir. Novruz bayramı münasibətilə bu kateqoriyadan olan şəxslərlə görüşlərin təşkili onlara göstərilən dövlət qayğısının davamıdır.

Həmin gün rayon mərkəzlərində də Novruz bayramı münasibətilə tədbirlər keçirilib. Ordubad rayonunda keçirilən bayram tədbirində sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu tədbir iştirakçıları qarşısında konsert proqramı ilə çıxış edib.

Bayram tədbirlərində məhdud fiziki imkanlı min nəfərə bayram sovqatı verilib.

Tədbir iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Novruz bayramı münasibətilə dünən Şahbuz şəhərindəki Ahıllar evində də tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova çıxış edərək sakinləri Novruz bayramı münasibətilə təbrik ediblər.

Çıxışlarda vurğulanıb ki, muxtar respublikamızın bütün sahələrində müşahidə olunan dinamik inkişaf və tərəqqi xüsusi qayğıya ehtiyacı olan şəxslərin, o cümlədən ahılların və sağlamlıq imkanları məhdud insanların sosial hüquqlarının təmin olunmasına, onların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açıb. Bu kateqoriyadan olan şəxslərə göstərilən sosial xidmətlərin səviyyəsi yüksəlib, onların cəmiyyətə inteqrasiya olunmaları istiqamətində həyata keçirilən tədbirlər intensiv xarakter alıb. Həmçinin qeyd edilib ki, Ahıllar evində sakinlərin fəal həyat tərzində yaşamaları və istirahətləri üçün yüksək şərait yaradılıb. Onlara mütəmadi tibbi və sosial reabilitasiya xidmətləri göstərilir.

Tədbirdə Şahbuz Rayon Mədəniyyət Evinin musiqi kollektivi konsert proqramı ilə çıxış edib.

Sonda sakinlərə bayram hədiyyələri təqdim olunub.

Ahıllar onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kollektivi iş yoldaşları Avtandil Vəliyevə, atası **TARİYELİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Mənzər Alməmmədovaya, əzizi **NİSƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin kollektivi iş yoldaşları Məleykə, Nərgiz və Zəroş Vəliyevalara, əzizləri **TARİYELİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 268**